# Qəbələnin sosial-iqtisadi inkişafı möhkəm zəminə söykənir

## 2019-cu ildə sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin hesabat

# MƏRUZƏSİ

***Qəbələ Azərbaycanın qədim torpağıdır. Hələ eramızdan əvvəl müxtəlif yazılı mənbələrdə Qəbələnin adı çəkilir. Dünya tarixində Qəbələnin özünə məxsus yeri vardır. Bu, bizim böyük sərvətimizdir. Biz öz tarixi irsimizə həmişə böyük hörmət və diqqətlə yanaşmalıyıq. Bu baxımdan, Azərbaycan tarixində, Azərbaycanın keçmişində və bu günündə Qəbələnin rolu çox mühüm və önəmlidir.***

***İlham ƏLİYEV.***

(Əvvəli 2-ci səhifədə).

fiq dövrünə nisbətən kənd təsərrüfatında 3.335,1 min manat, yaxud 3,4 %, tikintidə 15.956,2 min manat, yaxud 25,4 %, ticarətdə 1.356,7 min manat, yaxud 2,1 %, informasiya və rabitədə 67,3 min manat, yaxud 5,7 % artım olmuşdur.

Bu dövrdə adambaşına düşən ümumi məhsul buraxılışı 1.248,6 manat təşkil etmişdir.

İl ərzində sənaye müəssisələrində çalışan 1.733 nəfər işçinin orta aylıq nominal əmək haqqı 502,3 manat olmuşdur.

Əsas kapitala yönəlmiş investisiyanın həcmi 80.708,0 min manat, tikinti quraşdırma işlərinin həcmi isə 78.821,8 min manat təşkil etmişdir.

2003-cü ilin oktyabr ayından 1 yanvar 2020-ci ilədək 16893-ü daimi olmaqla, 21.400 yeni iş yeri açılmışdır. İl ərzində açılmış yeni iş yerlərinin sayı 3.206 olmuşdur ki, həmin iş yerlərinin 2.685-i daimidir.

İl ərzində Qəbələ Rayon Məşğulluq Mərkəzində işaxtaran kimi qeydiyyatdan keçmiş 1.936 nəfərdən 708 nəfəri münasib işlə təmin edilmişdir.

İşsiz və işaxtaran vətəndaşların müvəqqəti məşğulluğunun təmin olunması istiqamətində işlər davam etdirilmiş, hesabat dövrü ərzində mərkəzdə qeydiyyatda olan vətəndaşlardan 336 nəfəri “Dost iş” MMC-də ictimai işlərə cəlb edilmişdir.

Özünüməşğulluq proqramının növbəti mərhələsində iştirak etmək üçün müraciət etmiş şəxslərdən sosial müdafiəyə xüsusi ehtiyacı olanların 64 nəfəri əlil olmaqla, 188 nəfər “Öz biznesinə başla və təkmilləşdir” təlimlərinə cəlb edilmişdir. Proqrama cəlb olunmuş vətəndaşlardan 186 nəfəri təlimləri uğurla bitirmiş, 183 nəfər biznes planların qiymətləndirilməsindən uğurla keçmişdir. Qiymətləndirmə mərhələsini keçmiş vətəndaşların 140 nəfəri aktivlərlə təmin edilmişdir.

“Ərazi Məşğulluq Proqramı”-na uyğun olaraq işə götürənlərlə işsiz və işaxtaran vətəndaşların qarşılıqlı ünsiyyətinin təşkil edilməsi məqsədilə 21 may 2019-cu il tarixdə aktiv məşğulluq tədbiri olan “Əmək Yarmarkası” keçirilmişdir. Yarmarkada 214 boş iş yeri təqdim edilərək 37 müəssisə və təşkilat, 345 nəfər işaxtaran vətəndaş iştirak etmişdir. Yarmarkada iştirak edənlərdən 71 nəfərə münasib işlərə göndəriş verilmişdir ki, onlardan 61 nəfəri işlə təmin olunmuşdur.

İl ərzində 15 nəfər işsiz vətəndaş 3 aylıq kompüter istifadəçisi peşə kursuna cəlb olunmuşdur. Eyni zamanda 15 nəfər mehmanxanada 3 aylıq təsərrüfat işləri üzrə nəzarətçi peşə hazırlığı kursuna cəlb edilmişdir.



*Prezident İlham Əliyev Qəbələ elektrik yarımstansiyasında yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub.*



*Prezident İlham Əliyev Qəbələ elektrik yarımstansiyasında.*

Rayonun yerli gəlirləri 2019-cu ilin yekunlarına görə 14.946,0 min manat proqnoza qarşı 24.799,0 min manat (165,9 %) və ya 9.853,0 min manat çox, o cümlədən: “Avtomobil Yolları” Məqsədli Büdcə fonduna aid olan məbləği 37,0 min manat proqnoza qarşı 18,9 min manat (51,1 %) və ya 18,1 min manat az yerinə yetirilmişdir. Yerli gəlirlərə aid olan məbləğ 7.922,0 min manat proqnoza qarşı 13.121,9 min manat (165,6 %) və ya 5.199,9 min manat çox, yerli xərcləri 7.922,0 min manat proqnoza qarşı 7.698,3 min manat (97,2 %) və ya 223,7 min manat az icra olunmuşdur. Gəlirlərin mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsi 6.987,0 min manat proqnoza qarşı 11.658,2 min manat (166,9 %) və ya 4.671,2 min manat çox icra olunmuşdur.

Yerli gəlirlər üzrə proqnozlaşdırılmış 10 növ gəlirdən 1 növ vergi üzrə proqnoz tapşırıq kəsrlə yerinə yetirilərək qeyd olunan gəlirlər üzrə büdcəyə 446,9 min manat az vəsait daxil olmuşdur. Digər 9 növ gəlirlər üzrə 5.646,8 min manat çox vəsait daxil olaraq rayonun gəlirləri ümumilikdə 5.199,9 min manat çox yerinə yetirilmişdir.

Yerli gəlirlər üzrə ümumilikdə daxil olmuş 24.799,0 min manat vəsaitdən 13.121,9 min manatı rayonun yerli gəlirlərinə, 18,9 min manatı qanunamüvafiq qaydada “Avtomobil yolları” Məqsədli Büdcə Fonduna, 11.658,2 min manatı isə mərkəzləşdirilmiş gəlirlərə aid edilmişdir.

Rayonun yerli xərcləri 7.922,0 min manat proqnoza qarşı 7.698,3 (97,2%) və ya 223,7 min manat az icra olunmuşdur. Ümumilikdə xərclərin təyinatdan az icra olunmasının səbəbi əmək haqqı və ona üstəlik xərc maddələrində qənaətin yaranması (yerli icra hakimiyyəti orqanları və səhiyyə bölməsi üzrə bəzi ştat vahidlərinin vakant olması ilə bağlı) və bəzi xərclər üzrə faktiki icranın olmadığı (elektrik enerjisi, qaz, su və s.) üçün vasaitin ödənilməməsi olmuşdur.

Yerli büdcənin hesabında və təşkilatların ayrı-ayrı xərc maddələri üzrə limit qalığında 1 yanvar 2020-ci il tarixə 5.423,6 min manat vəsait qalığı yaranmışdır.

**Hörmətli müşavirə iştirakçıları!**

Ötən müddət ərzində əhalinin elektrik enerjisi, təbii qaz, poçt, rabitə və digər kommunal xidmətləri ilə təminatının daha da yaxşılaşdırılması məqsədi ilə bu sahələr daim diqqət mərkəzində saxlanılmışdır.

İl ərzində bütün növ istehlakçı qruplar tərəfindən 125.383,1 min kvt/saat elektrik enerjisi istehlak edilmiş, 10.762,8 min manata qarşı 9.366,5 min manat vəsait toplanaraq yığım planı 87,0 % yerinə yetirilmişdir. Həmin göstərici büdcə təşkilatları üzrə 82,4 %, dövlət müəssisələri üzrə 60,9 %, ticarət xidməti üzrə 95,6 %, özəl sənaye üzrə 93,3%, əhali qrupu üzrə isə 81,7 % olmuşdur.

10 kV-luq hava xəttinin 18,8 km məsafəsində əsaslı və cari təmir işləri aparılmışdır. 10 kV-luq hava xəttinin Mıxlıqovaq, Vəndam, Qaradeyin, Zarağan, Bum və 4-cü şəhər elektrik verilişi ha-

(Ardı 4-cü səhifədə).